# Regionun gələcəyi üçün əhəmiyyətli olan tarixi səfər

## Azərbaycan və Gürcüstan yeni ticarət körpüləri yaradır

Azərbaycanın Vətən müharibəsindəki şanlı qələbəsi, eləcə də bir neçə həftə əvvəl həyata keçirdiyi antiterror tədbirləri nəticəsində suverenliyini tam bərpa etməsi dövlətimizin regional liderliyini ən yüksək həddə çatdırıb. Prezident İlham Əliyevin oktyabrın 8-də Gürcüstana işgüzar səfəri çərçivəsində müzakirə olunan məsələlər, ötürülən önəmli mesajlar da bunu sübut edir. Azərbaycan və Gürcüstan liderlərinin Tbilisi görüşü Cənubi Qafqazın gələcəyi üçün ciddi əhəmiyyət kəsb edən böyük hadisədir.

Milli Məclisin deputatı Naqif Həmzəyev qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin Tbilisiyə işgüzar səfəri çərçivəsində bir çox məsələlər müzakirə olundu. "Bu görüşü şərh edərkən Ümummilli Lider Heydər Əliyevlə Gürcüstanın dahi şəxsiyyəti Eduard Şevardnadzenin dostluğuna xüsusi diqqət çəkmək lazımdır. Cənab Prezident də öz çıxışında bu iki dahi şəxsiyyətin dostluq və qardaşlıq münasibətlərinin nəticə etibarilə xalqlar arasında da xoş münasibətlərinin qurulmasına gətirib çıxardığını vurğulayıb. Prezident də dedi ki, bizlər də onların davamçıları olaraq bu münasibətlərin inkişaf etdirilməsində maraqlıyıq və onların yolu ilə gedirik. Həm sovetlər dövründə, həm də hər iki ölkənin müstəqillik illərində belə yaxın münasibət ölkələrimiz arasında dərin əlaqələrin qurulmasına səbəb olub. Xalqlarımızın birgə səylərinin nəticəsidir ki, Azərbaycan və Gürcüstan bu gün də dostluq və qardaşlıq əlaqələrini ən yaxşı şəkildə davam etdirirlər", - deyə deputat qeyd edib.



Deputat deyib ki, Azərbaycan və Gürcüstan birlikdə bir çox beynəlxalq və yerli layihələrin icrasını həyata keçirir: "Azərbaycan Gürcüstana ən çox sərmayə qoyan ölkələrdən biridir. Həmçinin Azərbaycan öz enerji resurslarını Gürcüstan vasitəsilə Türkiyəyə, eyni zamanda Qara dənizə çıxarır. Bundan başqa, nəqliyyat yollarının da Gürcüstan üzərindən keçməsi nəticə etibarilə Azərbaycanın yük daşımalarını da bu ölkə üzərindən həyata keçirməsinə imkan verir. Onu da qeyd etmək lazımdır ki, Gürcüstanda mövcud olan limanların genişləndirilməsində də yaxından iştirak etmək ölkəmizin marağındadır. İnanırıq ki, Azərbaycan və Gürcüstan birlikdə məhz bu layihələri də reallaşdıra biləcək".

Naqif Həmzəyev ümid edir ki, Ermənistan tezliklə Azərbaycan və Gürcüstan münasibətlərindən nümunə götürərək regionda sülhün və əmin-amanlığın bərpasına öz töhfəsini verəcək və yaxın gələcəkdə Tbilisidə Azərbaycan, Gürcüstan və Ermənistan liderlərinin görüşü baş tutacaq.

Prezident İlham Əliyev də məhz Tbilisi görüş yeri üçün təklif etdi: "İnanaq ki, Cənubi Qafqazda sülhün əldə olunması mümkün olacaq və bəlkə də gələcəkdə Ermənistanla Azərbaycan arasında sülh anlaşmasının imzalanması məhz Tbilisi şəhərində baş tutacaq. Ermənistanın sülh proseslərinə yaxından töhfə verəcəyi təqdirdə Azərbaycanla Gürcüstanın birgə icra etdiyi beynəlxalq layihələrdə bu ölkənin də iştirakı mümkün ola bilər. Bu da nəticə etibarilə Ermənistanın iqtisadiyyatının dirçəlməsinə və inkişafına dəstək verər. Bir daha sübut olunur ki, qalib tərəf olmağına baxmayaraq, Azərbaycan məğlub Ermənistana da inkişafın yolunu göstərir".

Bir sözlə, Azərbaycan Prezidentinin Gürcüstana işgüzar səfəri çox uğurlu səfər kimi dəyərləndirilməlidir. Belə səfərlər həm iqtisadiyyatımızın güclənməsinə töhfə verir, həm də gələcəkdə daha önəmli layihələrin reallaşdırılması üçün təməl rolunu oynayır.

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.-10 oktyabr.- S.7.